*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * **İCTİMAİ-SİYASİ QƏZET** * №005 (205) iyun 2021-ci il

# Mədəniyyətimizin paytaxtı

***Şuşa şəhərinin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub və buna görə də ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad adlandırmışlar. XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə, XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdir. Şuşanı haqlı olaraq ”Kiçik Paris”, ”Qafqazın sənət məbədi”, ”Azərbaycan musiqisinin beşiyi” və ”Zaqafqaziyanın konservatoriyası” adlandırırdılar.***




1992-ci ilin may ayının 8-dən 2020-ci ilin noyabr ayının 8-dək ermənilər tərəfindən işğala məruz qaldığı dövrdən başqa, tarix boyu yarandığı gündən Şuşada həmişə azərbaycanlılar yaşamışdır. Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur.

Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Bu tarixi Sərəncam Şuşa şəhərinin ölkəmizin mədəniyyət beşiyi statusunun bərpası, çoxəsrlik şöhrətinin özünə qaytarılması, xalqımızın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin dünyada tanıdılmasına xidmət edəcəkdir.

Mənfur Ermənistan respublikasının silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğalı dövründə burada vandalizm siyasəti həyata keçirilmiş, xalqımızın tarixi-mədəni irsinin məhvinə cəhd göstərilmişdir.

Erməni vandalları 1992-ci ilin may ayından 2020-ci ilin noyabr ayınadək Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif və kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey, turizm bazası, şərq musiqi alətləri fabriki dağıdılmış, məbədgah və məscidlər təhqir edilmiş, çox sayda nadir əlyazma nümunələri məhv edilmiş, 20 kitabxana yandırılmışdır.

2020-ci ilin sentyabr ayının 27-dən başlayan Vətən müharibəsində Ali Baş Komandanın qətiyyəti, Ordumuzun qüdrəti sayəsində tarixi ədalət bərpa edildi, noyabrın 8-də Şuşa şəhəri işğaldan, əsarətdən azad olundu. Şuşanın azad olunması günü Azərbaycan tarixinin ən şərəfli, ən şanlı səhifəsidir. Bu münasibətlə Ali Baş Komandan, Prezident İlham Əliyev ”Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda, bəlkə də, ən xoşbəxt günlərimdən biridir. Şuşa bizimdir! Qarabağ bizimdir!” deyərək bütün Azərbaycan xalqını təbrik etmişdir.

Vətən müharibəsi başa çatandan sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad olunan torpaqlarda bərpa və quruculuq işlərinə başlanılıb. Bu proses hazırda Şuşa şəhərində də davam etdirilir. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilib. Azərbaycan Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Şuşa şəhərinin azad olunması, onun yenidən bərpası, Azərbaycan mədəniyyətində öz layiqli yerini alması Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu, həm də əsas hədəflərindən biri idi. Hələ Sövet İttifaqı dönəmində Ulu Öndər mədəniyyətimizin mərkəzi Şuşa şəhərinə xüsusi diqqət yetirmiş, 1977-ci ildə məhz onun təşəbbüsü ilə ”Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilmişdir.

Həmin dövrdə bu qərar nəticəsində Şuşada tarixi abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimləri, Üzeyir Hacıbəyov, Xurşudbanu Natəvan və Bülbülün xatirələrinin əbədiləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən, daha sonra fevralın əvvəlində Azərbaycan Televiziyasına verdiyi müsahibəsində Şuşanın mədəniyyət paytaxtı elan ediləcəyini demişdi. Bu Sərəncamın imzalanma tarixi kimi məhz 7 may tarixinin seçilməsi təsadüfi deyil, özündə mühüm mesajlar ehtiva edir.

Məlumdur ki, Şuşa şəhəri mənfur erməni silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğal olunmuşdu. Ermənilər qəsdən Şuşa şəhərinin adını təhrif edərək ”Şuşi” kimi təqdim edir, 8 mayı qələbə günü kimi qeyd edir, həmin gün müxtəlif tədbirlər keçirərək beynəlxalq ictimiyyəti aldadır, özlərinə dəstək qazanmağa çalışırdılar.

Prezident İlham Əlyevin Sərəncamından sonra hər il mayın 8-ni bayram edən ermənilər 29 il sonra bu tarixi Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olması faktı ilə qarşılamağa məhkum və məcburdurlar. Beləliklə, Ermənistana və dünya erməniliyinə mesaj verilir ki, ”Şuşi” adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt olmayacaqdır. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi ermənilərə dəstək verərək tariximizin saxtalaşdırılmasına kömək etmiş digər dövlətlərə də bir mesajdır.

Ermənistan təkcə Şuşada deyil, Qarabağın bütün ərazilərində Azərbaycan izini silmək üçün dərədən-qabıqdan çıxmış və təəssüflər ki, bəzi dövlətlər də bu proseslərdə qəsdən və ya bilməyərəkdən iştirak etmişlər. Azərbaycan İslam memarlığının, Qarabağ şəhərsalma ənənələrinin, Şuşanın türk-Cavanşir nəslinin yadigarlarından olan Yuxarı Gövhərağa məscidinin fars memarlıq abidəsi adı ilə ”restavrasiya”sına, deməli özgələşdirilməsinə cəhd edilmişdir və qonşu bir ölkənin şirkəti də bu təmir işlərində iştirak etmişdir.

Haqlı olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarında tariximizin belə özgələşdirilməsi cəhdlərini qətiyyətlə pisləmiş, rəsmi Azərbaycanın icazəsi olmadan, hansısa dövlətə məxsus şirkətin mənfur ermənilərlə əlbir olaraq, Şuşada Yuxarı Gövhərağa məscidinin təmirində iştirak etməsinin yolverilməz olduğunu, bütün məscidlərin, tarixi abidələrin öz gücümüzlə təmir olunacağını, abadlaşdırılmasını bildirmişdir.

Vətən müharibəsindən sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dəfələrlə Şuşa şəhərinə səfərlər etmişlər və bu zaman ziyarət etdikləri obyektlərin hamısı - Şuşa Realnı məktəbi, Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri, Qazançı kilsəsi, Bülbülün ev muzeyi, Vaqifin türbəsi, Cıdır düzü Azərbaycanın mədəniyyət inciləridir, tarixi dəyərlər daşıyaraq yalnız xalqımıza məxsusluğu ilə seçilir.

Yaxın günlərdə Türkiyə Prezidentinin Azərbaycana səfəri gözlənilir və bu ərəfədə şəhərin statusunun Sərəncamla rəsmiləşdirilməsi, liderlərin görüşü haqda informasiyalarda dünyanın diqqətini Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olmasına bir daha yönəldəcəkdir.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində ”Xarıbülbül” festivalı keçiriləcəkdir. Şuşanın rəmzi olan gülün adını daşıyan ”Xarıbülbül” musiqi festivalı ilk dəfə 1989-cu ilin may ayında Şuşanın əsrarəngiz Cıdır düzündə təşkil olunub. 32 ildən sonra Cıdır düzündə keçiriləcək bu dəfəki ”Xarıbülbül” musiqi festivalı Heydər Əliyev Fondu tərəfindən təşkil olunur. Hazırda festivala son hazırlıq işləri görülür. Festival çərçivəsində Cıdır düzündə Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı ”Azərbaycan musiqisində multikulturalizm” mövzusunda təqdim ediləcək, xalq mahnıları və klassik musiqidən ibarət proqram təşkil olunacaq.

Şuşanın mədəniyyət mərkəzi elan olunmasının daxili auditoriya üçün də verilən mesajları var. 2021-ci ilin fevral ayının əvvəllərində Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində Şuşanın müxtəlif qurumlar, oliqarxlar tərəfindən zəbt olunmasına yol verilməyəcəyini xüsusi qeyd etmişdir. Şuşada aparılan quruculuq işləri kortəbii deyil, layihələr əsasında, planlı şəkildə aparılacaq, bərpa ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət təmin olunacaq, mədəniyyət paytaxtı elan olunan Şuşa memurlara təslim edilməyəcəkdir.

Artıq Şuşa şəhərində tarixi binalar, abidələr bərpa edilməkdədir. Dahi Azərbaycan şairi, Qarabağ xanlığının vəziri Vaqifin məqbərəsi birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun vəsaiti hesabına bərpa edilir.

Şuşa şəhərinin Rəsm qalereyası, Şuşa Xalça Muzeyi, ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilmiş ”Qarabağ” mehmanxanası təmir-bərpa işlərindən sonra müasir səviyyəyə istifadəyə veriləcəkdir. Sovet dövründə tikilmiş keçmiş sanatoriya əsaslı təmirdən sonra Park Otel kimi şəhərin qonaqlarının xidmətinə veriləcəkdir. Bundan əlavə Şuşada ”beş”, ”dörd” və ”üç” ulduzlu kiçik otellərin yaradılması, ermənilər tərəfindən baxımsız qaldığı üçün uçulub dağılmaqda olan xristian məbədlərinin bərpa edilməsi həyata keçiriləcəkdir.

Bütün bu bərpa, quruculuq işlərindən sonra Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir.

Hazırda nəhəng tikinti meydanını xatırladan Şuşanın girişində Azərbaycan bayrağı qürurla dalğalanır və Prezident İlham Əliyev dediyi kimi bundan sonra əbədi dalğalanacaqdır.



# Ələt Azad İqtisadi Zonası

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illər ərzində qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb olunması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində önəmli layihələr icra olunmuşdur. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə böhranına baxmayaraq, respublikamızda sosial-iqtisadi proseslər hazırda da uğurla davam etdirilir. Ələt Azad İqtisadi Zonasının yaradılması da bunun bariz nümunəsidir.**

Sirr deyil ki, bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla bərabər, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaqdır. Eyni zamanda, iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə, əlavə iş yerlərinin yaradılmasına əlverişli şərait yaradacaq. Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edərkən bütün bunlar barədə dövlətimizin başçısına məlumat verilərək, bildirilib ki, bu iqtisadi zonanın ümumi sahəsi 850 hektar olacaq. Onun ümumi sahəsinin 60 hektarında layihələndirilmə işləri artıq başa çatdırılıb və inşaat işlərinə başlanılıb, bütün infrastrukturun qurulması üçün zəruri addımlar atılıb. Diqqətə çatdırılıb ki, zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etmək, innovativ texnologiyalardan yararlanaraq, investorlara səmərəli şərait yaratmaq, bununla da ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaqdır. Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində Ələt Azad İqtisadi Zonasının yaradılması ideyası və bu zonanın gələcəkdə ölkəmizə verəcəyi töhfə barədə ətraflı bəhs etmişdir. Dövlətimizin başçısı belə bir zonanın təşkili ideyasının təməlində Azərbaycanın reallaşdırdığı uğurlu siyasətin dayandığını, xüsusilə son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlərin bu məsələyə təkan verdiyini diqqətə çatdıraraq deyib: "Biz gördük ki, qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir. Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər. Ona görə, bu zonanın yaradılması, əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Eyni zamanda, burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək. Çünki bizim ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, neft sektoru artıq üstünlük təşkil etmir. Ancaq ixraca baxdıqda görərik ki, ixracımızın mütləq əksəriyyəti neft-qaz məhsulları ilə təmin edilir. Ona görə bax, burada da islahatların aparılması və xarici investorların, xüsusilə, sənaye sahəsinə cəlb edilməsi əsas amillərdən biri idi. Əlbəttə ki, bu ideya çoxdan müzakirə olunurdu. Ancaq bu layihənin reallaşdırılması üçün vaxt düzgün seçilməli idi, biz buna hazır olmalı idik və hesab edirəm ki, bu gün biz buna hazırıq". Ölkə rəhbəri müsahibəsində Ələt Azad İqtisadi Zonasının yaradılması ilə bağlı indiyədək atılan addımlar barədə də ətraflı danışıb. Bildirib ki, ötən müddətdə bu istiqamətdə, ilk növbədə, investorların cəlbi məqsədilə təşkilati işlər görülüb və əlverişli hüquqi baza yaradılıb. Mükəmməl qanunvericilik hazırlanıb və 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının təşkilinin sürətləndirilməsinə dair müvafiq sərəncam imzalanıb. Bundan bir il sonra isə qanun qəbul edilib. Beləliklə, dünyada cərəyan edən maliyyə böhranı, eləcə də, pandemiyanın dünya iqtisadiyyatına mənfi təsir göstərdiyi bir şəraitdə bu zonanın yaradılması ilə bağlı cəsarətli addımlar atılıb. Əlbəttə, bu zaman bütün işlər aparılan uğurlu dövlət siyasətinə əsaslanaraq reallaşdırılıb, konsepsiyanın işlənməsinə start verilib, işçi qrup yaradılıb. Azad İqtisadi Zonanın Ələtdə yaradılması da təsadüfi olmayıb. Bununla bağlı əvvəlcə onu xatırladaq ki, "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri vasitəsilə ölkəmizin rəqabət qabiliyyətliliyini təmin etmək mühüm vəzifə kimi qarşıya qoyulub. Son illərdə bu məsələ nəqliyyat və iqtisadi əhəmiyyəti ilə bərabər, geosiyasi rolu baxımından da xüsusi diqqət çəkib. Bu, təsadüfi deyil. Çünki Azərbaycanın həm nəqliyyat dəhlizlərinin kəsişdiyi coğrafi məkan, həm də ciddi rəqabət qabiliyyətinə malik dövlət olaraq bu prosesdə iştirak etməsi, ölkəmizi regionun geosiyasi, iqtisadi, kommunikasiya və logistika mərkəzi kimi tanıdıb. Prezident İlham Əliyevin 2016-cı il mart ayının 17-də Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalaması da məhz yuxarıda xatırlatdığımız məqamla bağlı olub. Sərəncamın əsas məqsədlərindən biri Azərbaycanın logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsindən ibarətdir. Azad İqtisadi Zonanın yaradılması isə Bakının beynəlxalq qovşağa çevrilməsinə böyük təkan verəcək. Bu bağlılıqda Prezident İlham Əliyevin Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı mərasimində söylədiyi fikirlər diqqət çəkir: "Bu layihələr Azərbaycanın geosiyasi önəmini böyük dərəcədə artırır. Azərbaycan Avrasiya məkanında regional əməkdaşlıq üçün əvəzolunmaz ölkə kimi öz fəaliyyətini davam etdirəcək". Yeri gəlmişkən, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı birinci kateqoriya limanlar üçün müəyyən edilən texniki tələblərə uyğun layihələndirilib və inşa olunub. Bu isə onu göstərir ki, Prezident İlham Əliyevin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, ölkəmizin tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri Azərbaycanın sosial-iqtisadi inkişafına mühüm töhfə verir. Son dövrlərdə iqtisadiyyatın, xüsusilə, qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli tədbirlər həyata keçirilir, modern nəqliyyat infrastrukturu yaradılır, tranzit potensialı artırılır. Bütün bunlar isə Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir, dövlətimizin siyasi və strateji əhəmiyyətini artırır. Bu baxımdan, dövlətimizin başçısının Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir. Onu da xatırladaq ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin ərazisi də daxil olmaqla ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limanı daha geniş tranzit və daşıma imkanları ilə təmin edəcək. Məhz elə buna görə də Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyənləşdirən "Ələt Azad İqtisadi Zonası haqqında" 18 may 2018-ci il tarixli Qanun imzalayıb.

Yeni yaradılacaq iqtisadi zona daha çox nəqliyyat, logistika zonasının formalaşmasına xidmət edəcək. İnvestisiyaların cəlb olunması isə burada əsas hədəf olaraq diqqət mərkəzində saxlanılacaq. Dövlətimizin başçısı Azərbaycan Televiziyasına müsahibəsində bununla bağlı deyib: "Azərbaycanda çox gözəl sərmayə iqlimi vardır. Biz bunu həm neft-qaz layihələrinin icrası zamanı nümayiş etdirmişik, həm də digər sahələrdə aparılan islahatlar nəticəsində çox gözəl investisiya iqlimi yaradılmışdır. Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb. Bu, dünya miqyasında çox böyük nailiyyətdir. Biz bir çox inkişaf etmiş ölkələri bu parametrlər üzrə qabaqlamışıq. Yəni, gözəl investisiya iqlimi investorları cəlb etmək üçün əlbəttə ki, əsas şərtlərdən biridir". Prezident İlham Əliyev daha sonra investorların bu layihəyə cəlbini şərtləndirən digər bir məqamı da diqqətə çatdıraraq, bunun respublikada müasir infrastrukturun mövcudluğu olduğunu bildirib: "Biz bu infrastrukturu son illər ərzində ardıcıl şəkildə yaratmışıq. Bu gün yenə də beynəlxalq mötəbər qurumlara istinadla deyə bilərik ki, bu sahədə də böyük uğurlar əldə etdik. Bilirik ki, potensial investorlar, ilk növbədə, Dünya Bankının "Doing Business" hesabatına baxırlar, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun reytinq cədvəlinə baxırlar. Hər iki yerdə bizim üstünlüyümüz göz qabağındadır. İnfrastruktur layihələrinin səviyyəsinə görə, baxın, Azərbaycan hansı yerlərə layiq görülüb. Elektrik təchizatı sahəsində Azərbaycan Davos Forumunun hesabatında dünya miqyasında ikinci yerdədir. Təsəvvür edin, dünya miqyasında ikinci yerdə. Dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yerdə. Hava nəqliyyatının səmərəliliyinə görə 12-ci yerdə. Avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşür. Xəzər gəmiçiliyi gəmiçilik xidmətlərinə görə 25-ci yerdədir. Bütün bunlar bizim əldə etdiyimiz böyük uğurlardır. Bu uğurlar bu gün ölkəmizin dinamik inkişafını təmin edir. Çünki əsas infrastruktur layihələri artıq ya başa çatıb, ya da başa çatmaq üzrədir. İnvestorlar üçün bunlar çox önəmli şərtlərdir - investisiya iqlimi, infrastruktur layihələri". Ümumiyyətlə, belə bir iqtisadi zonanın yaradılmasının üstünlüyü ondan ibarətdir ki, Azərbaycan tranzit ölkə olaraq öz imkanlarını genişləndirə biləcək və ölkə ərazisinə daha çox yükdaşımalara nail olacaq. Son dövrlər Azərbaycan ərazisində malların Avropadan və Türkiyədən Asiyaya aparılmasına olan marağın artmasını nəzərə alaraq yeni iqtisadi zonanın yaradılması Azərbaycanın imkanlarını genişləndirəcək. Yeni iqtisadi zona, həmçinin dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına da səbəb olacaq. Qeyd edim ki, bu addım, eləcə də məşğulluğun inkişafına mühüm təsir göstərəcək. Çünki yeni investisiyaların cəlb olunması yeni iş yerlərinin yaranması deməkdir. Yuxarıda qeyd edilənlərlə yanaşı, Ələt Azad İqtisadi Zonası digər sektorlarda da aktivliyin artmasına münbit şərait yaradacaq. İnvestisiyalar həyata keçirildikdən sonra yerli xammala ehtiyac artacaq. Bundan başqa, yeni iqtisadi zona iqtisadçı kadrların işlə təmin olunmasının həyata keçirilməsinə müsbət təsir göstərəcək. Prezident İlham Əliyev müsahibəsində Ələt Azad İqtisadi Zonasında investorların fəaliyyətə başlayacaqları vaxtı da açıqlayaraq, gələn ilin iyul ayından etibarən, Azərbaycanın investorları qəbul edəcəyini diqqətə çatdırıb. Dövlətimizin başçısı bu əminliyin əsasında indiyədək bütün təşəbbüslərin, bütün planların həyatda öz əksini tapması, reallığa çevrilməsi amilinin dayandığını göstərib. Məhz buna görə də, Ələt Azad İqtisadi Zonasının yaradılması Azərbaycan dövlətinin növbəti uğurlu addımı olacaqdır.

# Pandemiya ilə mübarizədə lider ölkə



***Ümumdünya Səhiyyə Assambleyasının "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusuna həsr edilmiş 74-cü sessiyası 2021-ci il mayın 24-dən 31-dək virtual şəkildə keçirilmişdir. Mayın 31-də sessiyanın bağlanış mərasimində xüsusi qonaq qismində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim edilib.***

Pandemiyanın ilk günlərindən Azərbaycanda COVİD-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilmişdir. Pandemiya ilə mübarizə işinə son dərəcə ciddi yanaşılmış və bu məqsədlə ölkənin bütün imkanları səfərbər olunmuşdur. Azərbaycan hökuməti tərəfindən pandemiyanın iqtisadiyyata mənfi təsirinin azaldılması məqsədilə sistemli tədbirlər görülmüşdür. Bununla yanaşı, COVID-19-un mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim edilmişdir.

Azərbaycan pandemiya ilə mübarizədə ən öndə gedən dövlətlər sırasındadır. Pandemiyanın ilk günlərindən sərt karantin tədbirləri tətbiq olunmuş, COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilmişdir. Ölkəmizdə pandemiya ilə mübarizə planlı şəkildə aparılmış, əhalinin sağlamlığının qorunmasına xüsusi diqqət ayrılmışdır. Həmçinin, COVİD-19-la daha effektiv mübarizə məqsədilə, qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxana inşa edilmişdir. Beləliklə, ölkəmizdə koronavirus xəstələrinin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının toplam sayı 10 mini ötmüşdür.

Artıq ikinci ildir ki, dünya COVİD-19-la yaşayır və bu müddət ərzində bütün müayinələr, təcrübələr, araşdırmlar təsdiq edir ki, hazırki mərhələdə pandemiya ilə mübarizənin əsas prioriteti əhalinin vaksinasiyasıdır. Ölkəmizdə görülmüş müfəssəl tədbirlər nəticəsində COVİD-19-la yoluxanların sayı kəskin azalmışdır və buna görə də karantin rejimi tədricən yumşaldılmışdır. Ölkəmizdə 2021-ci ilin yanvar ayından etibarən peyvənd kampaniyası başlanıb və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qəbul olunmuş "Sinovak", "AstraZeneca" və "Sputnik" olmaqla, 2 milyon doza peyvənd istifadə edilmişdir. Bu rəqəm Azərbaycan əhalisinin 20 faizini təşkil edir. Bir milyona yaxın vətəndaşımız isə artıq ikinci dəfə peyvənd olunmuşdur. Hazırda 18 yaşdan yuxarı bütün vətəndaşlar könüllü olaraq peyvənd oluna bilərlər. İkinci dəfə vaksinasiya olunmuş vətəndaşlara COVID-19 pasportları təqdim ediləcəkdir.

Azərbaycan həmişə pandemiya dövründə ümumbəşəri dəyərlərə sadiq qalaraq humanitar təşəbbüslərlə çıxış etmişdir. Ölkəmiz bütün beynəlxalq tədbirlərdə dünya əhalisinin vaksinlə ədalətli şəkildə təmin olunmasının tərəfdarı olmuşdur.

Azərbaycan bəzi inkişaf etmiş ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və bununla da zəif inkişaf etmiş ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir. Pandemiyanın yaratdığı uğursuz meyllər arasında ən son və ən aktual olanı peyvənd millətçiliyidir. Həqiqətən, davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Acınacaqlı haldır ki, dünyada mövcud olan peyvənd dozalarının 80 faizindən çoxu inkişaf etmiş ölkələr tərəfindən alınmışdır.

Birləşmiş Millətlər Təşkilatından sonra ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının (QH) hazırkı sədri olaraq, Azərbaycan bərabər mənada peyvənd paylanmasının tərəfdarı olmuş, bütün beynəlxalq tədbirlərdə ədalətli mövqe sərgiləmişdir. Pandemiyanın başlanmasından bəri Azərbaycan bu böhrana qarşı təşkilatda müdrik koordinasiyalı bir yanaşma seçmişdir. 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının koronavirus xəstəliyi - COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyasında Qoşulmama Hərəkatının 120 üzv dövləti adından danışan Prezident İlham Əliyev problemə çoxtərəfli yanaşmanın vacibliyini vurğulamış və bütün ölkələr üçün COVID-19-a qarşı dərmanlara, peyvəndlərə və tibbi avadanlıqlara bərabər əlçatanlığın təmin olunmasının vacibliyini qeyd etmişdir.

Böyük problemlər yaşamasına rəğmən, Azərbaycan pandemiya ilə mübarizədə qlobal çağırışlarla çıxış edən nadir ölkələrdəndir. Hazırda bəşəriyyətin qarşısında duran bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürmüş və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunmuşdur. Humanist prinsiplərə həmişə sadiq olan Azərbaycan pandemiya ilə mübarizədə zəngin ölkələri və donor təşkilatları iqtisadi cəhətdən kasıb ölkələrə yardım etməyə dəvət etmişdir.

COVİD-19 pandemiyasının qarşısının alınması ilə əlaqədar Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə olduqca səmərəli əməkdaşlıq edir. Pandemiya ilə mübarizədə tibb işçilərinin fədakar əməyini yüksək qiymətləndirən ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən 2021-ci ilin "Səhiyyə işçiləri ili" elan edilməsini alqışlayır. Təsadüfi deyildir ki, ötən il ÜST Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırmışdır. COVİD-19-la səmərəli mübarizə məqsədilə Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir. Bundan əlavə, koronavirusla əlaqədar inkişafda olan 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərilmişdir.

# Türkiyə-Azərbaycan qardaşlığı

***Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmiş, Ulu Öndər Heydər Əliyevin müdrikcəsinə dediyi kimi, "bir millət, iki dövlət" olmuşlar. Təsadüfi deyildir ki, Türkiyə dövlətinin müdrik şəxsiyyəti Mustafa Kamal Atatürk Azərbaycanın kədərini özlərinin kədəri, sevincini isə öz sevincləri hesab etmişdir.***



"Biz elə bir güclü müttəfiqlik yaratmışıq ki, gələcək nəsillər öz addımlarını bu müttəfiqliyə, bu qardaşlığa uyğun atmalıdırlar və indidən bir-birinə sıx bağlı olmalıdırlar." Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu sözləri mayın 27-də Türkiyənin milli təhsil naziri Ziya Selçuku qəbul edərkən səsləndirdi. Ölkəmizin başçısı vurğuladı ki, hazırda Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ən yüksək səviyyədədir və elə sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. İki ən yaxın qardaş ölkə kimi biz bütün sahələrdə qarşılıqlı hörmət və qarşılıqlı maraqlar əsasında əməkdaşlıq edirik: "Təhsil sahəsi də əməkdaşlığımızın önəmli bir hissəsidir. Çünki gənc nəslin yetişdirilməsi, bir-birinə bağlı olması üçün, əlbəttə ki, bu sahədə çox önəmli addımlar atılmalıdır və atılır. Əminəm ki, sizin budəfəki səfəriniz çərçivəsində bir çox önəmli məsələlər müzakirə olunacaq və gələcək işbirliyimiz haqqında konkret planlar tərtib ediləcəkdir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd etdi ki, ölkəmizdə indi yeni dövr başlayıb: "İkinci Qarabağ müharibəsindən sonra bərpa və yenidənqurma dövrü başlamışdır. Mən sizə azad olunmuş torpaqlarda Ermənistan tərəfindən törədilmiş dağıntılara həsr edilmiş kitabı da təqdim edəcəyəm. Görəcəksiniz ki, bizim torpaqlarımız nə qədər böyük dağıntılara məruz qalıb. İndi şəhərlərin baş planı hazırlanır və bu baş planların tərkib hissəsi kimi məktəblərin tikintisi nəzərdə tutulur. Şuşa şəhərində ermənilər tərəfindən dağıdılmış məktəbin təməli bu ay qoyulmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın səfəri çərçivəsində Türkiyə tərəfindən təklif edilmiş bir hədiyyə kimi, məktəbin də təməlqoyma mərasimi proqramda öz əksini tapıbdır".

Hazırda Azərbaycanda təhsil sahəsində də ciddi islahatlar aparıldığını deyən Prezident İlham Əliyev bildirdi ki, Türkiyənin təcrübəsi bizim üçün çox önəmlidir. Eyni zamanda Türkiyə və Azərbaycan gənclərinin bir-birinə daha sıx bağlı olması ilə əlaqədar əlavə təkliflər də müzakirə edilməlidir: "Hesab edirəm ki, bu məqsədlə müxtəlif tədbirlər - gənclər forumları, birgə təhsil proqramları və digər tədbirlər keçirilməlidir". Türkiyənin milli təhsil naziri Ziya Selçuk qəbula görə təşəkkür edərək dedi: "Qarabağ Zəfərinin - tarixə yazılan bu Qarabağ Zəfərinin qəlbimizdəki sevinci ilə buradayıq. Min ildən sonra da Sizin adınız tarixdə uşaqlar tərəfindən tərənnüm ediləcək və uşaqlar Sizin adınızı, xalqın, şəhid olan əsgərlərimizin adını əzbər söyləyəcəklər". Nazir qeyd etdi ki, iki ölkə arasında təhsil proqramları, təhsilin inkişafı, gələcəklə bağlı görüləcək işlərlə əlaqədar sıx əməkdaşlıq var. Bu çərçivədə peşə fəaliyyəti ilə bağlı imzalanan protokol da həyata keçirilir. Prezident peşə təhsili ilə bağlı əməkdaşlığın önəmini xüsusi vurğuladı: "Azərbaycan, dediyim kimi, bu gün böyük quruculuq işlərinin astanasındadır və həm azad edilmiş torpaqlarda, həm də bütün ölkə üzrə yeni təhsilli kadrların hazırlanması çox böyük önəm daşıyır. Ona görə, azad edilmiş torpaqlarda ixtisaslar üzrə, o bölgələrin potensialına uyğun olaraq peşə məktəbləri yaradılmalıdır. Əlbəttə ki, biz Türkiyə tərəfinin dəstəyinə ümid edirik". Dövlət başçısı həmçinin gənc nəslin ölkələrimizin tarixini, o cümlədən İkinci Qarabağ müharibəsi ilə bağlı həqiqətləri bilməsinin əhəmiyyətini diqqətə çatdırdı: "Mən artıq göstəriş vermişəm ki, bizim təhsil proqramlarımızda, məktəblərdə və ali məktəblərdə, universitetlərdə tarix dərsliklərinə İkinci Qarabağ müharibəsi mövzusu mütləq salınsın. İndi bizim müvafiq qurumlar, o cümlədən Təhsil Nazirliyi bu məsələ üzərində çalışır ki, bizim bu şanlı tariximiz dəqiqliklə öyrənilsin. Çünki beynəlxalq mətbuatda bu günə qədər İkinci Qarabağ müharibəsi ilə bağlı yanlış və təhrifedilmiş məlumat dərc edilir. Ona görə, real həqiqətləri, həqiqətə əsaslanmış bu tarixi biz həm öz vətəndaşlarımıza, həm də dünyaya çatdırmalıyıq. Ümid edirəm ki, Türkiyənin tarix dərsliklərində də bu məsələ öz əksini tapacaq. Xüsusilə, nəzərə alsaq ki, Türkiyə müharibənin ilk saatlarından Azərbaycana çox böyük siyasi və mənəvi dəstək göstərmişdir". Sovet dövründə tarixin ideoloji məqsədlərlə, təhrifedilmiş şəkildə tədris olunduğunu deyən İlham Əliyev qeyd etdi ki, qəhrəmanlar düşmən kimi göstərilirdi, düşmənlər qəhrəman kimi. Ölkəmiz müstəqilliyə qovuşandan sonra real tarixi öyrənə bildik: "Ona görə indiki şəraitdə biz həm qədim tariximizi, eyni zamanda, müasir tariximizi olduğu kimi təqdim etməliyik və bu sahədə bərabər çalışacağıq".

Göründüyü kimi, Türkiyə ilə Azərbaycan arasında dostluq-qardaşlıq münasibətləri uğurla inkişaf edir, bütün sahələri əhatə edir və bu əməkdaşlığın çox gözəl nəticələri vardır.

# Silahlı Qüvvələr Günü qeyd olundu








***Ölkəmizin hər yerində olduğu kimi 26 iyun Silahlı Qüvvələr Günü münasibətilə rayonumuzda da tədbir keçirildi.Tədbirə şəhid ailələri ilə yanaşı bir qrup müharibə iştirakçıları da dəvətli idi.***

İştirakçılar öncə Ulu Öndərin heykəlini ziyarət edərək, ora tər çiçəklər düzdülər.Ulu Öndərin adını daşıyan mərkəzin zalında tədbir davam etdirildi.Azərbaycan Respublikasının himni səsləndikdən sonra, bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsinin rəisi polkovnik leytenant İxdiyar Əhmədov çıxış edərək bildirdi ki, artıq ordumuzun yaranmasından 103 il keçir.Silahlı Qüvvələr Günü münasibətilə bütün hərbiçilərimizi təbrik edirəm.Hamıya yaxşı məlumdur ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi sayəsində ordumuz 44 gün ərzində parlaq qələbə çaldı.Ermənistan məğlub oldu, işğala son qoyuldu.Bu 44 günün hər biri bizim şanlı tariximiz oldu.Vətən Müharibəsində Ali Baş Komandanın ətrafında six birləşdik.Rayonumuzun vətənsevər oğulları da bu döyüşdən kənarda qalmadılar.Məlum məsələdir ki,müharibə itkisiz olmur.Ağır gedən döyüşlərdə bir neçə gəncimiz şəhid oldu.Prezidentimiz İlham Əliyevin sərəncamı ilə şücaət göstərmiş döyüşçülərimiz müxtəlif fərqlənmə nişanları ilə təltif olundular.Onlardan iki hərbiçimiz ən Ali Fərqlənmə nişanı olan "Vətən Müharibəsi Qəhrəmanı" adına layıq görülmüşlər.Mayor Mirdamət Bağıyev və Gizir Elyar Vəliyev (ölümündən sonra).

Bu gün burada şəhidlərmizin valideynləri və yaxınları iştirak edir.Onların hər birininin qarşısında baş əyirəm.Allah şəhidlərimizə rəhmət etsin.Gənclərimiz ruh yüksəkliyi ilə döyüşə yollanırdılar. RİH-nin Başçısı Adil Məmmədov və aparatın bütün işçiləri bizə yaxından köməklik göstərirdi.Ona görə də onlara öz minnətdarlığımı bildirirəm.

Söz şəhid atası-Arif Vəliyevə verilir.Oğlum-Vətən Müharibəsi Qəhrəmanı Elyar Vəliyevin torpaqlarımızın azadlığı uğurunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlməsində öz qururluq hissini bildirirəm.Hal-hazırda oğlum Elçin də hərbi xidmətdədir.O da döyüş vaxtı fəallıq göstərib.Hörmətli Prezidentimiz İlham Əliyev cənabı öz sərəncamı ilə övladlarımızın döyüşdəki şücaətlərini yüksək qiymətləndirib.RİH-nin başçısı Adil Məmmədov eləcə də hərbi komissar İxdiyar Əhmədov biz şəhid valideynlərinə xüsusi qayğı göstəriblər.Ona görə də ölkə başçımıza və rayon rəhbərliyinə öz minnətdarlığımı bildirirəm.Azərbaycan Silahlı Qüvvələrini də bu gün münasibətilə təbrik edirəm.Şəhidlərimizin valideyinlərinə də səbr diləyirəm.

RİH-nin başçısı Adil Məmmədov Silahlı Qüvvələr Günü ilə əlaqədar Azərbaycan Ordusunu təbrik etdi.Çıxışında bildirdi ki,Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ermənistanın silahlı birləşmələrinin təxribatlarına qarşı başlayan 44 günlük Vətən Müharibəsində rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın müddətdə düşmən işğalında olan torpaqlarımızı azad etdi.Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.İşğaldan azad olunmuş tarixi torparlarımızda bu gün üç rəngli bayrağımız dalğalanır.Əhalisinin sayına görə kiçik rayonlar sırasındayıq .Amma buna baxmayaraq, Vətən Müharibəsində iştirak etmiş gənclərimiz sayca elə də az deyildi.Burada şəhidlərimizin valideynləri və yaxınları iştirak edir.Onların hər biri bizə yaxın və doğmadır.Həmişə bu qəbildən olan insanlar bizim diqqət mərkəzimizdədir. Hörmətli valideynlər, sizin hər birinizə səbr arzulayıram.Başınızı həmişə dik tutun.Sizlər buna layiqsiniz.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təltif olunmuş şəhidlərimizin medalları onların valideynlərinə təqdim olundu.Eyni zamanda bir neçə nəfər müharibə iştirakçılarına da medallarla təltif olundu.Sonda polkovnik leytenant İ.Əhmədov hərbi formada olan bir nəfəri yanına dəvət edərək bildirdi ki, bu şəxs Sündü kənd sakini Nicat Balayevdir.O, birinci Qarabağ döyüşçüsü və ikinci qrup əlildir.Onun 47 yaşı var.O , Vətən Müharibəsinin başlandığı ilk günlərdə bizə müraciət etdi ki, döyüşə getmək istəyir,lakin göstərilən şərtlərə uyğun olmadığına görə razı olmadıq.Amma sonradan öyrəndik ki, Nicat sərbəst şəkildə döyüşə qatılıb və qızğın nöqtələrdədir.Bax,əsl Vətən sevgisi budur.

Biz də "Qobustan" qəzetinin əməkdaşları olaraq müzəffər ordumuzu həmkarımız Şahməmməd Dağlaroğlunun aşağıdakı misraları ilə təbrik edirik.

*Ana südü haladır,*
*Sən tək oğula , ərə.*
*Əsir düşmüş torpağı,*
*Yağından aldın geri,*
*Azərbaycan əsgəri!*




**_Ruslan Şahbazov,_**
**_Məhəmməd Bayramov_**

# 2 iyul Azərbaycanda Polis Günüdür

***İyulun 2-də Azərbaycan Polisi yaranmasının 103-cü ildönümünü qeyd edir. Xalqımızın ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan olunub.***

Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına, xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların mükafatlandırılmasına xüsusi diqqət yetirir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin martın 12-də - Daxili Qoşunların yaranması günündə Daxili Qoşunların Bakının Sabunçu rayonunda yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak etməsi, eləcə də həmin gün imzaladığı Sərəncamla Qoşunların iki hərbi qulluqçusunu "Vətən uğrunda", üç nəfəri "İgidliyə görə", 7 nəfəri isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif etməsi bunun əyani göstəricisidir.




Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının Fərmanı ilə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq yaradılan və hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların fəaliyyətinin təşkilinin Daxili İşlər Nazirliyinə həvalə edilməsi Azərbaycan Polisinə göstərilən yüksək etimadın daha bir göstəricisi oldu. Ölkəmizin bütün ərazilərində, o cümlədən işğaldan azad olunan şəhər və rayonlarımızda bu mühüm məsuliyyətin öhdəsindən layiqincə gələn daxili işlər orqanlarının əməkdaşları göstərilən etimadı doğrultmaq üçün gecə-gündüz uğurla xidmət aparırlar.

Bu gün münasibətilə Qobustan rayon Polis Şöbəsində tədbir keçirildi. İlk öncə Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək qoymaqla başlayan tədbir, Qobustan RPŞ-də davam etdirildi. Qobustan RPŞ-nin rəisi polis Polkovniki Etibar Babayev şəxsi heyəti bu gün münasibətilə təbrik etdi. Sonra xidmətdə fərqlənənlərə rütbə və hədiyyələr təqdim etdi.

# Şahin Seyidzadə: "Qəbul edilən Protokol peşə təhsilində ilk dəfə ikili diplom əldə edilməsi imkanı yaradacaq"

***Milli Məclisin 50 saylı Abşeron-Qobustan seçi dairəsi üzrə deputatı, Elm və təhsil komitəsinin üzvü, "Ali təhsil haqqında" Qanun layihəsini hazırlayan işçi qrupun üzvü Şahin Seyidzadə "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol" barədə fikirlərini bölüşüb.***

"Bildiyiniz kimi Azərbaycan Respublikası Milli Məclisinin 8 iyun 2021-ci il tarixli növbədənkənar plenar sessiyasında 19 fevral 2021-ci il tarixində Azərbayvan və Türkiyə arasında imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol" təsdiq olunub.

İmzalanan protokolun yaratdığı imkanlar çərçivəsində ən başlıca qeyd etmək istərdim ki, ölkəmizdə peşə təhsili alan tələbələr artıq həm Azərbaycan, həm də Türkiyə standartlarına uyğun diplom əldə edə biləcəklər. Yəni ölkəmizdə peşə təhsil müəssisəsinə qəbul olan şagirdlər müxtəlif istiqamətlər üzrə öz təhsilini yekunlaşdırdıqdan sonra artıq, həm Azərbaycanın həm də Türkiyənin standartları ilə tənzimlənən diplom əldə edəcək. Sözsüz ki, iki ölkənin təhsil təcrübəsi və standartları ilə qazanılan biliklər də öz növbəsində həmin məzunlara karyerda geniş imkanlar verəcək." - deyə deputat bildirib.

Deputat Şahin Seyidzadə daha sonra qeyd edib ki, "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Türkiyə Milli Təhsil Nazirliyi ilə birgə yaradılacaq və ikili diplom verilməsi nəzərdə tutulan, yeni yataqxananın inşa ediləcəyi iki təhsil müəssəsində informasiya texnologiyaları, qalma və səyahət xidmətləri, mebel və interyer dizayn, qida sahəsində tədris həyata keçiriləcək."

"Azərbaycan və Türkiyə hökumətləri arasında əlaqələrin möhkəmlənməsi və proqressiv inkişafı çərçivəsində addımlar çərçivəsində imzalanan bu protokol,müasir tələblərə cavab verən kadrların hazırlığın istiqamətində qarşılıqlı



inam və etimada əsaslanaraq geniş fəaliyyəti əhatə edəcək və ölkələmizdə peşə təhsilinin inkişafına xidmət edəcəkdir." deputat sonda vurğulayıb.

# Zəfər çalmış Milli Ordu

***Bu günlərdə, 26 iyun 2021-ci il tarixində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılmasının 103 ili tamam olmuşdur. 1918-ci ilin 28 mayında yaradılmış, Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq ordu quruculuğu sahəsində çox mühüm qərarlar qəbul etmişdir.***

Məhz 26 iyun 1918-ci il tarixində hökumətin qərarı ilə Müsəlman Korpusunun adı dəyişdirilərək Azərbaycan Əlahiddə Korpusu adlandırıldı və bununla da nizami ordu quruculuğuna start verildi. Bunun ardınca isə ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında sərəncam verildi.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra, ölkəmizdə ordu quruculuğuna son qoyuldu. Sovet İttifaqı dövründə digər müsəlman xalqlar kimi, azərbaycanlılara da etibar olunmur, onlar ordu quruculuğundan kənarda qalırdı. Yalnız dünya şöhrətli siyasətçi, Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəldikdən sonra hərbi sahədə milli kadrların yetişdirilməsinə başlanıldı. Heydər Əliyev böyük zəhmətlər hesabına Bakıda görkəmli sərkərdə Cəmşid Naxçıvanski adına hərbi liseyin açılmasına nail oldu və beləliklə ölkəmizdə hərbi kadrların hazırlanması prosesi işə salındı. Ölkəmizdə milli hərbi kadrlar hazırlayan liseyin açılması bəzi şovinist Sovet rəhbərlərini narahat edirdi, onlar iddia edirdi və əsaslandırmağa çalışırdılar ki, Sovet İttifaqının bir hissəsi olan Azərbaycanda belə məktəbə ehtiyac yoxdur. Lakin Heydər Əliyevin qətiyyəti, siyasi gedişləri, mahir diplomatiyası Moskvanın bütün cəhdlərini puça çıxarırdı. Bu məktəbin açılması Azərbaycanda hərb sənətinə olan marağı artırdı, milli kadrlar yetişdirilməsində böyük rol oynadı. C.Naxçıvanski adına hərbi lisey Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ordu quruculuğu mərkəzinə çevrildi, milli ordunun zabit heyətinin böyük əksəriyyəti bu məktəbin məzunları idi. Ulu Öndər Heydər Əliyevin nüfuzu sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması, eləcə də Sovet İttifaqının digər ali hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması mümkün olmuşdu.

Müstəqilliyimizin ilk illərində ordu quruculuğuna diqqət yetirilmədi və təsadüfi deyildir ki, məhz həmin illər fürsətdən yararlanan təcavüzkar Ermənistan Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal etməyə nail oldu. Yalnız xalqın təkidli tələbi və arzusu ilə təkrar hakimiyyətə qayıdan Ulu Öndər ölkədə siyasi sabitləyə nail oldu, ordu quruculuğuna yenidən başlanıldı. 1994-cü ilin may ayının 12-də Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs imzalandıqdan sonra, ordu quruculuğu prosesi daha da sürətləndi. Yaranmaqda olan Milli Ordunun maddi-texniki bazası gücləndirildi, şəxsi heyətin psixoloji durumunun yüksəldilməsinə böyük diqqət və qayğı göstərildi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il il 22 may tarixli Sərəncamına əsasən, 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü elan olundu və bu gün hər il rəsmi dövlət bayramı kimi qeyd olunmağa başladı. Fəaliyyəti dövründə ordu quruculuğuna xüsusi diqqət yetirən Ulu Öndər Heydər Əliyevin 1999-cu il 20 yanvar tarixli Fərmanı ilə, hərbi təhsil sisteminin daha da ihkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı. Dahi rəhbərin 2001-ci il 20 avqust tarixli Fərmanı ilə Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmağa başladı və bununla da ali təhsil sisteminin təkmilləşdirilməsinə xidmət edən məktəblərin də statusu yüksəlmiş oldu. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq ölkəmizin NATO ilə sıx əməkdaşlığa başlaması Silahlı Qüvvələrimizin maddi-texniki bazasının modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına və ordu quruculuğunun daha da təkmilləşdirilməsinə öz layiqli töhfəsini vermişdir. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu proqramın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. İl ərzində 2000-dən çox Azərbaycan hərbçisi NATO-nun müxtəlif proqramlarında, təlimlərində iştirak edərək öz ixtisaslarını artırdılar, hərbi yenilikləri mənimsəmək imkanı əldə etdilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovada, Əfqanıstanda, İraqda zəngin təcrübə keçən və NATO sisteminə uyğunlaşan Azərbaycan Silahlı Qüvvələri tədricən bölgənin ən güclü ordusuna çevrildi. Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Silahlı Qüvvələrimiz bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla yerinə yetirir. Məhz bu uğurlu siyasət nəticəsində Müdafiə Sənayesi Nazirliyinin istehsalat sahələrində 400-dən artıq müdafiə təyinatlı məmulat istehsal olunur və bu da ölkəmizin hərbi qüdrətinin artmasının əsas göstəricilərindən sayılır. Bu Ordumuzun zəruri silah, sursat və texnika ilə təmin olunmasına əvəzsiz imkanlar yaratmışdır. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrinə həssaslıqla yanaşan dövlət başçısı Prezident İlham Əliyev əsas prioritet sahə kimi ordu quruculuğunun daha da təkmilləşdirilməsinə diqqət və qayğını əsirgəmir. Milli Ordumuzun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, şəxsi heyətin sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərini müəyyən edir.




Ali Baş Komandan Prezident İlham Əliyevin xüsusi qayğısı və diqqəti sayəsində Ordumuzun müdafiə qabiliyyəti yüksəlmiş, maddi-texniki bazası möhkəmləndirilmiş, hərbçilərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Milli Ordunun daha da modernləşdirilməsi, ən müasir silahlarla təchiz olunması Ali Baş Komandan Prezident İlham Əliyevin siyasətinin strateji istiqamətlərindəndir.

Son dövrlər aparılan modernləşdirmə işləri Silahlı Qüvvələrimizi Cənubi Qafqazın ən güclü Ordusuna çevirməklə yanaşı, həm də Prezident İlham Əliyevin öz vədlərinə sadiq qaldığını nümayiş etdirir. Azərbaycan vətəndaşı olaraq, keçirilən hərbi paradlarda Ordumuzun keyfiyyət və kəmiyyətcə daha da yüksəlməsinin şahidi olmaq qürurverici faktlardır. Əminliklə deyə bilərik ki, bu gün Qafqazın ən güclü Ordusu olan Silahlı Qüvvələrimiz potensial rəqibə qarşı qırıcı və bombardmançı təyyarələrlə mübarizə aparmaq iqtidarındadır. Həinki Qafqazda, bütün MDB üzrə Azərbaycan hava hücumundan müdafiə qüvvələri ən yaxşılar sırasındadır. Azərbaycan Silahlı Qüvvələrinin büdcə vəsaitləri ildən-ilə artırılır, bu həm də hərbi imkanlaımızın artırılması deməkdir.

Ötən dövr ərzində Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, şəxsi heyətin mənzil şəraitinin yaxşılaşdırılması Ali Baş Komandan Prezident İlham Əliyevin daima diqqət məkəzində olmuşdur. Hazırda Azərbaycan müdafiə sənayesində müxtəlif növ hərbi texnika, zirehli maşınlar, müasir atıcı silahlar, pilotsuz uçan aparatlar istehsal olunur. Azərbaycan zavodlarında istehsal olunan bu silahlar Silahlı Qüvvələrimizi əhəmiyyətli dərəcədə təchiz edir. Azərbaycan Respublikası silah və hərbi texnikanın alınması ilə bağlı Rusiya, Türkiyə, İsrail və bir sıra dövlətlərlə müqavilələr imzalamışdır və bu əlaqələr, hərbi əməkdaşlıq genişləndirilməkdədir.

Ermənistanın əzəli Azərbaycan torpaqlarını zəbt etməsindən 30 ilə yaxın müddət keçməsinə baxmayaraq, nüfuzlu təşkilatların susqunluğu, tətbiq olunan ikili standartlar işğalçını daha da ruhlandırırdı. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində uğurlu diplomatik iş aparan Ali Baş Komandan İlham Əliyev 2020-ci il 27 sentyabrda başlayan və 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə qazanaraq tarixi nailiyyətə imza atdı. Vətənimizin ərazi bütövlüyünü təmin edən edən şanlı Ordumuz tək Ermənistanı deyil, eləcə də dünyada erməni diasporunu, məkrli erməni kilsəsini, onların havadarlarını diz çökdürdü, beləcə on illərlə davam edən işğala son qoyuldu. Ermənistan üzərində parlaq qələbə həm də, Ali Baş Komandan Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonra apardığı praqmatik, sistemli siyasi kursun və uzaqgörən xarici diplomatiyanın bəhrəsi idi.

44 gün davam edən Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin gücünü, hərbi qabiliyyətini, hazırlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Ordumuz XXI əsrin müharibəsini apardı. Artıq dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Rəşadətli ordumuz çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında elm, peşəkarlıq, hərbi məharət göstərərək, erməni işğalçılarını məhv edərək, torpaqlarımızı azadlığa çıxartdı. Müharibə zamanı 5-ci nəsil müharibəsini aparan ordumuz tərəfindən hərbi əməliyyatlar zamanı silah və sursatların ehtiyacılıq səviyyəsi bir daha təcrübədən keçirildi ki, bu da gələcəkdə hərbi xərclərin və hərbi təyinatlı məhsulların istehsalında daha düzgün və real qərarların qəbul edilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Bu məsələyə xüsusi münasibət bildirən cənab İlham Əliyev qeyd edir ki, "Bu döyüşlər bizim üçün böyük təcrübədir. Biz gördük ki, hərbi arsenalımızda olan bəzi silahlar bəzi hallarda müasir döyüşlərdə o qədər də lazım olmur. Əksinə, biz bu gün yüksək texnoloji mərhələyə qədəm qoymuşuq və əlbəttə ki, texnologiyalar, peşəkarlıq böyük dərəcədə hər bir ordunun uğurunu təmin edir". Ancaq bununla yanaşı, bu müharibənin qalibi var. O da torpaqlarımızı işğalçılardan azad edən, sərhədlərimizi qoruyan, hər bir vətəndaşımızın əmin-amanlığının, sakit həyatının keşiyində dayanan bizim mərd, cəsarətli əsgərlər və zabitlərimizdir. Onlar bu Vətən üçün, üçrəngli bayrağımız üçün canlarını, sağlamlıqlarını fəda etdilər.

Vətən müharibəsində qələbə münasibətilə "Zəfər" və "Qarabağ" ordenləri, eyni zamanda, "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları təsis edildi. Həmin medal və ordenlərin təsis olunması Qələbənin əbədiləşdirilməsinin və müharibə iştirakçılarına göstərilən diqqət və qayğının təzahürüdür. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallara təltif olunublar.

Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman hərbçilərin, müharibə veteranlarının və qazilərinin, eyni zamanda, şəhid ailələrinin rifahı və sosial müdafiəsi üçün bütün imkanları yaradırlar. "YAŞAT" Fondu, Heydər Əliyev Fondu və digər qeyri-hökumət təşkilatları da bu prosesdə fəal iştirak edirlər. Hər birimiz dərk edirik ki, biz Qarabağın azad edilməsinə, torpaqlarımızın erməni faşizmindən təmizlənməsinə və ərazi bütövlüyümüzün təmin olunmasına görə şəhidlərimizə, qazilərimizə, Azərbaycan əsgəri və zabitinə borcluyuq! Qalib xalqın vətəndaşı, qalib ordunun əsgəri olmaq böyük şərəf və məsuliyyətdir.

# Hamiya örnək ömür yolu

*Ağsaqqal milli-mənəvi dəyərlərimizin qızıl fondudur.*
***Heydər Əliyev***

***Ömür kitabının 73-cü səhifəsinin uğurla yaşamaqda olan el ağsaqqalı Şıxbala Bayramovun həyatını əziz oxucularımıza çatdırmağı qərara aldım.***



Arzumu ona bildirərkən yaxasını kənarə çəkmək istəsə də səriştəm karıma gəldi.

Şıxbala Bayramov 1948-ci ildə rayonumuzun Təklə kəndində dünyaya göz açıb.O, özünəməxsus uğurlu bir həyat yolu keçmiş,xalqına, elinə ləyaqətlə xidmət etmiş və hər bir kəsin yanında hörmət və ehtiram qazanmışdır.

1966-cı ildə Şamaxı şəhər 1 saylı orta məktəbi bitirərək, sənədlərini Azərbaycan Politexnik İnstituna verir.1971-ci ildə həmin ali məktəbi müvəffəqiyyətlə bitirərək, təyinat üzrə Şərqi Abşeron Qaz İstismarı idarəsində sahə rəisi kimi fəaliyyətə başlamışdır.Bir il sonra doğma Şamaxıya qayıdaraq qədim diyarın abadlaşdırılmasında öz bilik və bacarığını ortaya qoymağa səy göstərmişdir.Rayon XDS İcrayə Komitəsinin təmir-tikinti sahələrində tikilməsində olan müəssisələr müdiriyyətində, 2 saylı Şamaxı Yol İstismar İdarəsində baş mühəndis və sonra altı il idarə rəisi vəzifəsini uğurla yerinə yetirmişdir.

1986-cı ildə onun işguzarlığı və səriştəsi nəzərə alınaraq Şamaxı şəhər XDS İcrayə Komitəsinin sədri seçilmişdir.1989-cu ildə Şamaxı rayon İstehlak Cəmiyyətləri İttifaqı İdarə Heyətin sədrinin tikinti işləri üzrə müavini vəzifəsində çalışmışdır.

1990-cı ildə yeni yaradılan Qobustan rayon İcrayə Komitəsinin sədrinin müavini vəzifəsinə təyin etmişlər.Sonra Rayon İcra Hakimiyyəti Başçısının müavini, Rayon İcra Hakimiyyətinin memarlıq-tikinti şöbəsinin müdiri-Baş memar vəzifələrində çalışmışdır. 2006-2011-ci illərdə rayon MMQ-nin sədri olmuşdur.

Bütün əmək fəaliyyəti dövründə öz təklifləri və təşəbbüsləri sayəsində rayon rəhbərliyinin dərin hörmətini qazanmışdır.Əməyi həmişə öz qiymətini almışdır.2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdir.Elə həmin ildə təqaüdə çıxmışdır. İctimai-siyasi fəaliyyəti nəzərə alınaraq 2013-cw ildə Qobustan Rayon Ağsaqqallar Şurasının sədri seçilmişdir.Hal-hazırda da həmin şuranın sədridir.

Şıxbala Bayramovun adı Azərbaycan Tikinti Kompleksinin Ensklopediyasına daxil olmuşdur.O həm də yaradıcılıqla məşğuldur.Dörd dərin məzmunlu kitabın müəllifidir.Şeirləri dövri mətbuatda çap olunmaqdadır.Kitablarında hikmətli sözlər və kəlamlar xüsusi yer tutur. "Qoşa Nur" kitabında verilmiş kəlamda deyilir:

*Allah kəlamlarınının zikrindən usanmayan,*
*Ondan gələn mənan qəlbimizdə saxlayın.*
*Çünki Allah kəlamı hər şeyin yüksəyidir,*
*Əməlin xeyirlisi, insanın bəzəyidir.*

Şıxbala müəllimin beş övladı, on bir nəvəsi var.Övladları bütünlüklə ali təhsilə yiyələnmiş və yiyələnməkdədir.Onların arasında elmi dərəcəsi və magistratura pilləsini bitirənlər də vardır.

Hər kəsə örnək olan bu əziz və hörmətli ağsaqqalımıza uzun ömür,can sağlığı yaradıcılığında uğurlar arzulayırıq.

***Məhəmməd Bayramov***
***Azərbaycan Jurnalistlər***
***Birliyinin üzvü***

# Əməyinə görə yüksək qiymətini almış

***Mikayılov Elman Elxan oğlu 1985-ci ildə Qobustan şəhərində anadan olmuşdur. Qobustan şəhər A.O.Çernyayevski adına 1saylı tam orta məktəbi bitirmişdir. 2002-ci ildə BDU-nin "Mexanika-riyaziyyat" fakultəsinə daxil olmuş və 2006-cı ildə müvəffəqiyyətlə təhsilini başa vurmuşdur. 2010-2013-cü illərdə O, Prezident yanında İdarəçilik Akademiyasının "Dövlət və bələdiyyə idarətetmə" fakultəsinə daxil olur və ikinci ali təhsilə yiyələnir.***

Əmək fəaliyyətinə 2007-ci ildə Uşaq İdman Məktəbində təlimatçı kimi başlayan Elman Mikayılov qisa bir müddət sonra RİH-nin Ümumi Şöbəsində məsləhətçi və RİH başçısının köməkçisi vəzifəsinə, 2008-ci ildən isə RİH-nin Ərazi İdarəetmə və yerli özünüidarətmə orqanları şöbəsinin müdiri vəzifəsinə təyin olunur.

Hörmətli prezidentimiz cənab İlham Əliyevin gənclərlə görüşü zamanı çıxışında söylədiyi "mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz həmişə mənə arxalana bilərsiz. Məndə sizlərə arxalanıram." Cümlələri bu gəncin əsas amalı olub.

Gənclərə göstərilən qayğıdan ruhlanan Elman müəllim daha daha da işinə əzmlə çalışamağa başalyıb.

Elman Mikayılovun 2019-cu ildə Milli Məclisə Seçkilər zamanı YAP tərəfindən namizədliyini irəli sürülmüşdür.

O, öz işi ilə bərabər rayonumuzun bütün içtimai işlərində həmişə yaxından iştirak edir.

Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən 44 günlük müharibə zamanı Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsinə yaxından köməklik göstərmişdir. Məhz ona görə də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin rəisi general polkovnik Azrzu Rəhimovun imzası ilə Fəxri Fərmana layiq görülmüşdür. Bundan əlavə Elman müəllim göstərdiyi nümunəvi xidmətlərinə görə bir neçə dəfə RİH başçısı Adil Məmmədovun "Fəxri Fərman"-larına layiq görülərək təltif olunmuşdur. Elman müəllim işllədiyi müdət ərzində rayon ərazisində və rayon qeydiyyatı olan kənarda yaşayan şəhid ailələrinə qayğı ilə ilə yanaşmış və qazilərin yaranmış problemlərini diqqətdə saxlayaraq, həllinə köməkliklər göstərmişdir.

Ataların belə bir kəlamı var: "Ot kökü üstündə bitər" . Bu



misalı Elman Mikayılova şamil etmək olar. Belə ki, onun ata babası Seyidməhəmməd müəllim məktəb direktoru, qəsəbə sovetinin sədri, sovxox direktoru vəzifələrində çalışmışdır. Onun təşəbbüsü ilə Cəmcəmli kənd yolunun kənarına xeyli sayda ağaclar əkilmişdir ki, hal-hazıra qədər həmin ağaclar kənd yoluna kölgəlik salaraq gözəllik verir.Eyni zamanda Böyük Vətən Müharibəsində həlak olmuş Cəmcəmlilərin xatirəsinə kənddə ucaldılmış "Naməlum abidə" də bu nəcib insanın sayəsində olmuşdur. Ana babası Hacı Məhəmməd kişi uzun müddət sovxoz direktoru olmuşdur. Öz xeyirxah işləri ilə tanınmışdır. Onların hər ikisinin dünyalarını dəyişmələrinə baxmayaq, gördükləri xeyirxah əməllər daim yaşayır.

Bu günlərdə şad xəbər aldıq. Hörmətli prezidentimiz cənab İlham Əliyev 23 iyun 2021-ci il tarixli sərəncamına əsasən Elman Elxan oğlu Mikayılov "Dövlət Qulluğunda fərqlənməyə görə" medalına layiq görülmüşdür. Bu münasibətlə onu təbrik edirik. Uğurları davamlı olsun.

Elman müəllim söhbətində bildirdi ki, mən həmişə öz işimdən zövq almışam. Çalışmışam ki,rayon rəhbərliyi tərəfindən mənə tapşırılmış işin öhdəsindən bacarıqla gəlim və buna da nail olmuşam. Mənim bir gənc olaraq, bu məsul vəzifəyə çalışmağımda və formalaşmağımda şəxsən RİH-nin başçısı Adil Məmmədov cənabının müstəsna rolu olub. Hörmətli başçımızdan xeyli təcrübə qazanmışam. Əməyimə verilən yüksək qiymətə görə hörmətli prezidentimizə öz minnətdarlığımı bildirirəm.

***Məhəmməd Bayramov***
***"Qobustan"***
***qəzetinin əməkdaşı***

# Mənalı müəllim ömrü




*Ömrünü öyrətməklə keçirən ,*
*Həkimləri, alimləri yetirən*
*Həyatını bir şam kimi əridən*
*Bir ömür var, o müəllim ömrüdür.*

Hidayətova Raifə Mürvət qızı 4 iyul 1966-cı ildə rayonumuzun Cəyirli kəndində anadan olub. 1974-cü ildə Cəyirli kənd orta məktəbinin birinci sinfinə qəbul olur və 1984-cü ildə orta məktəbi bitirir. 1985-ci ildə bir illik rabitəçi kursunun müdavimi olur. Beş ilə yaxın Şamaxı rayonunda yerləşən 56 saylı obyektdə rabitəçi işləyir. Ancaq ən böyük həvəsi müəllimlik peşəsinə yiyələnmək olub. 1993-cü ildə Cəyirli kənd tam orta məktəbində Uşaq Birliyi Təşkilatının Rəhbəri vəzifəsində çalışıb. Pedaqoji işə olan həvəs Raifə Hidayətovanı Şamaxı şəhərindəki Mədəni Maarif Texnikumunun ibtidai sinif müəllimliyi ixtisasına gətirir. 2001-ci ildə A. Quliyev adına Cəyirli kənd orta məktəbində ibtidai sinif müəllimi kimi fəaliyyətə başlayır. Tez bir zamanda



şagirdlərinin sevimlisinə çevrilir. O, şagirdlərin sabahı üçün zərrə-zərrə "əriyir".

Raifə müəllimə bir çox pedaqoji təlimlərdə iştirak edir. İşinə görə Rayon İcra Hakimiyyəti və Təhsil Şöbəsi tərəfindən dəfələrlə fəxri fərmanlara layiq görülmüşdür.Bir çox layihələrdə fəal iştirakına görə ona verilən təşəkkürnamələr, diplomlar və sertifikatlar bir -birini əvəzləyir. 2012-ci ildən Azərbaycan Təhsil Şurası İctimai Birliyinin üzvüdür. Raifə müəlliməmin təhsillə bağlı məqalələri yazıçı-jurnalist Böyükağa Mikayıllının " Müəllimin iş təcrübəsi " kitabında çap olunmuş və pedaqoji təcrübəsi Respublika üzrə yayımlanıb. 2018-ci ildə Təhsil Şurasının işçiləri ilə birlikdə Ukrayna Respublikasına işgüzar səfər edib. Orada olarkən pedaqoji fəaliyyəti video-slaydla təqdim olunub. 2019-cu ildən Etwinq layihəsinin qurucusu və üzvüdür.

Müəllimin şagirdlərinin bir çoxu ali məktəbləri və kollecləri bitirib. Müxtəlif sahələrdə çalışırlar. Bu arada dahi şairimiz Bəxtiyar Vahabzadənin aşağıdakı misraları yerinə düşür.

*Ey hörmətli müəllim,*
*Hər könüldə yerin var.*
*Hər kənddə, hər şəhərdə*
*Sənin meyvələrin var.*

Bir müəllim kimi bu gün də şagirdlərinin yanındadır.

O həmişə gənclərə diqqət göstərib və öz pedaqoji təcrübəsini onlarla bölüşüb. Bu gənclərdən biri də mənəm. Məqalə müəllimənin yubiley ərəfəsinə təsadüf edir. Bu münasibətlə hər kəsin sevimlisi olan dəyərli Raifə müəllimi təbrik edir, sağlıqlı, mənalı, uzun ömür , pedaqoji fəaliyyətində bol nailiyyətlər arzu edirəm.

***Qeyd:*** *Müəlliməə haqqında məlumatlarda köməkliyinə görə A. Quliyev adına Cəyirli kənd tam orta məktəbin UBRT-i Yəmən Hidayətovaya təşəkkür edirəm.*

***Günay Bayramlı***
***R.Babaşov adına Cəmcəmli kənd***
***tam orta məktəbinin müəllimi***

# Qobustan Gənclər Evində gənclərlə maarifləndirmə xarakterli görüş keçirilmişdir





***"26 İyun- Narkomaniya ilə Beynəlxalq Mübarizə Günü" münasibəti ilə Qobustan rayon Polis İdarəsinin dəstəyi və Qobustan Gənclər Evi SXM-nin təşkilatçılığı ilə gənclərlə maarifləndirmə xarakterli görüş keçirilmişdir.***

Tədbirdə Qobustan rayon Polis İdarəsinin Cinayət Axtarış Bölməsinin əməliyyat müvəkkili leytenant Samir Allahverdiyev mövzu ilə bağlı gənclərə geniş məlumat vermiş və sualları cavablandırmışdır.

Gənclik Gələcəkdir!

## Vətən Müharibəsi Qazisi Famil Üzeyirov





44 günlük Vətən Mühahibəsi dövründə 3 övladı olmasına baxmayaraq bir neçə dəfə könüllü olaraq Qobustan rayon Hərbi Komisarlığına müraciət etmiş və şəxsi istəyi ilə döyüşə yollanmışdır. Qazimiz Suqovuşan istiqamətində gedən döyüşlərdə ayaqlarından ağır qəlpə yaraları almışdır. Gənclərimizlə birgə Sumqayıt şəhərində məskunlaşan Vətən müharibəsi Qazimizi ziyarət etdik və həmsöhbət olduq.

Qeyd edim ki, cənab Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Qazimiz Famil Üzeyirov "Döyüşdə fərqlənməyə görə" və "Suqovuşan uğrunda" medallarına layiq görülüb.



## Azərbaycan bayrağı zəfər simvolu





*İyunun 17-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin elan etdiyi "Vətənpərvərlik üzrə ədəbiyyat müsabiqəsi"nin mükafatlandırma mərasimi keçirilib. Tədbirdə Mədəniyyət Naziri cənab Anar Kərimov və digər əməkdaşlar, münsiflər heyəti, qaliblər və media nümayəndələri iştirak ediblər.*

Qobustan rayon sakini, AYB-nin və GTYB-nin üzvü, şair-publisist Yusif Nazim Ərəbsoy poeziya janrı üzrə "Zəfər simvolu" adlı şeirilə I ci yerə layiq görülüb. Ona mükafatı Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid təqdim edib. Tədbirdə çıxış edən Yusif Nazim Ərəbsoy Azərbaycan bayrağının zəfər simvolu olmasına inamını ifadə edib.




## "2 İyul - Polis İşçilərinin Peşə Bayramı Günü" münasibəti ilə Qobustan Gənclər Evi SXM adından "GƏNCLƏRİN DOSTU" mükafatını təqdim edildi





***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Qobustan rayon Polis Şöbəsinin rəisi polis polkovniki Etibar Fərhad oğlu Babayevə "Gənclər siyasətinin inkişafına verdiyi böyük töhfə və dəstəyə görə - "2 İyul - Polis İşçilərinin Peşə Bayramı Günü" münasibəti ilə Qobustan Gənclər Evi SXM adından "GƏNCLƏRİN DOSTU" mükafatını təqdim edildi.***

Təqdim olunmadan sonra Qobustan rayon Polis Şöbəsinin əməkdaşları ilə Qobustan Gənclər Evi SXM-nin gəncləri arasında "Dostluq görüşü" adlı futbol oyunu keçirildi. Maraqlı oyun şəraitində keçirilən yoldaşlıq oyunu gənclərin üstünlüyü ilə yekunlaşdı. Sonda qalib komandaya kubok və hədiyyələr təqdim olunmuşdur.

Bütün Polis İşçilərinin Peşə Bayramını təbrik edirik!








# Qələbədə onların da payı var







***1994-cü ilin 26 iyun Silahlı Qüvvələr günündə Qobustan rayon Dərəkənd kəndində anadan olan İsrafilli Cavid İsrafil oğlu.***

İsrafilli Cavid İsrafil oğlu 5 ilə yaxındır ki, M.Sahibov adına Ərəbqədim kənd tam orta məktəbində fiziki tərbiyə müəllimi işləyir. İşlədiyi müddətdə səmimiyyəti, etibarı ilə el-obanın , müəllim və şagird kollektivinin hörmətini qazanıb. İctimai-kütləvi tədbirlərdə, idman yarışlarında tədbirlər hazırlayıb uğurlar qazanıb.

Vətən Müharibəsi başlayanda Cavid müəllim də könüllü olaraq ön cəbhəyə yola düşüb... Tərtər, Füzuli, Suqovuşan uğrunda döyüşlərdə iştirak edib.

Döyüşlərdən yadda qalan xatirələrdən danışan Cavid müəllim deyirdi: "Döyüş gedən zaman bir kəndə daxil olduq kəndi azad etdik və kəndin məktəbində toplaşdıq. Mən məktəbin idman zalına baxdım . Ordakı oturacaqda əyləşib bir anlıq öz məktəbimi fikirləşdim. Gözümün önünə idman zalı, keçdiyim dərslər yadıma düşdü. Qəhər məni boğdu. Yavaşca pıçıltı ilə dedim. Görək axırı necə olur. Amma içimdən qəti, hökm haqq tərəfindədi. Möhürlənmiş bir cümlə vardı. Mən torpaqlarımızı azad etməyə gəlmişəm."

Cavid döyüşlərin birində yaralanaraq qazi kimi evinə dönüb. Dövlət, rayon rəhbərliyi və digər təşkilatlar onun döyüşdəki xidmətini qiymətləndirib. Belə ki, Qobustan RİH başçısı tərəfindən "2fevral Gənclər Günü "münasibətilə fəxri fərmanla, ATİAHİ Qobustan rayon təşkilatı tərəfindən medalla, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən "Suqovuşanın azad edilməsinə görə" medalı ilə təltif olunub.

Bir daha dəyərli qazimizi Cavid müəllimi təbrik edirik, uzun ömür , can sağlığı arzulayırıq.

*Çoxdan gözləyirik biz bu savaşı,*
*Qələbəm, zəfərim çağırı məni,*
*Bu döyüşdən, ruh, nə dön, nə yavaşı*
*Qarabağ səfərim çağırır məni.*

***

*Nə toy, nə zarımaq, nə yas vaxtıdır,*
*Haqq-hesab vaxtıdır, qisas vaxtıdır,*
*Vətən qorumağın əsas vaxtıdır*
*Silahım, səngərim çağırır məni.*

***

*Tanrıdan güc alan Ali Bayrağım!..*
*Qalmasın düşmənə qarış torpağım.*
*Canım Azərbaycan! Can Qarabağım!..*
*Bir yumruq- dəmirim çağırır məni.*

***

*Tapınıb Allahın dərk dünyasına,*
*Bu odlar yurduna, Türk dünyasına,*
*Qarabağ dönməli görk dünyasına,*
*Əsir kənd, şəhərim çağırır məni.*

***

*Bir könüllü əsgər, qazi, şəhidəm,*
*Vətən, xalq yolunda haqq mücahidəm.*
*Əmr edir Komandan , Mehman, şahidəm*
*Mərd ordum, əsgərim çağırır məni.*

***Qobustan rayon M.Sahibov adına Ərəbqədim kənd tam orta məktəbin dil-ədəbiyyat müəllimi, şair-publisist Mehman Rəcəbov.***




***Çexiyada yeniyetmə cüdoçular arasında Avropa kuboku keçirilir. Azərbaycan Cüdo Federasiyasından verilən xəbərə görə, beynəlxalq turnirdə mübarizə aparan yeniyetmələrdən ibarət***

# Qobustan cüdoçusu Babarəhim Mirzəyev Avropa kubokunda 3-cü olmuşdur

***cüdo millimiz aktivinə 4 medal yazdırıb.***

Oğlanların mübarizəsində Xəyal Həsənov (-50 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub. Bu çəkidəki digər təmsilçimiz Qobustan rayon UGİM-nin baş məşqçi-müəllimi Qüdrət Ələkbərovun yetirməsi Babarəhim Mirzəyev bürünc medala layiq görülüb. 60 kq çəki dərəcəsində yarışan cüdoçumuz Aydın Rzayev yalnız final görüşündə uduzaraq gümüş medal əldə edib. Qızların yarışında Aydan Rzayeva millimizə gümüş medal qazandırıb. Beləliklə milli komandamız Teplitse yarışının ilk günündə 1 qızıl, 2 gümüş və 1 bürünc medala sahib olmuşlar.

Qeyd edək ki, Beynəlxalq yarışda Avropanın 28 ölkəsindən 371 cüdoçu medallar uğrunda mübarizə aparır.

# 2021-ci ilin iyul ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqları barədə yaddaş

**15 iyul**

Gəlir və Mənfəət vergisi: Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

**Birinci metod:** Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

**İkinci metod:** Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat verməдиyi halda vergi orqanı birinci metodu tətbiq edir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir. Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilndə fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

***Qeyd:* Mikro sahibkarlıq subyektləri cari vergi arayışını təqdim edərkən (Vergi Məcəlləsinin 102.1.30-cu və 106.1.20-ci maddələrindəki vergi güzəştlərini tətbiq edə bilərlər.)**

**Məcburi dövlət sosial sığorta haqqı:** Hər ay üçün hesablanır, əməkhaqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq ödənilir.

**İşsizlikdən sığorta haqqı:** Hər ay üçün hesablanmış sığorta haqqı sığortaedən tərəfindən əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə ödənilir.

**İcbari tibbi sığorta haqqı:** Hər ay üzrə əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

***22 iyul***

Gəlir vergisi (Xüsusi notariuslar üzrə): Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə "Xüsusi notariusun gəlir vergisi bəyannaməsi" hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**Gəlir vergisi (İdman mərc oyunları, lotereyalar, habelə digər yarışlar və müsabiqələr üzrə):** İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlar və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman oyunları ilə əlaqədar aparılan idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar. Lotereyaların keçirilməsindən, digər yarışlar və müsabiqələrdən gəlir (mükafat) rezident şəxslər tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə isə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində gəlir vergisi hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına təqdim etməyə borcludurlar.

**Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**Yol vergisi üçün** hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Yol vergisinin bəyannaməsi"ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün (o cümlədən idman mərc oyunlarının operatorları və satıcılarının bu fəaliyyəti üzrə) hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**Sadələşdirilmiş vergi (Bina tikintisi fəaliyyəti üzrə):** Bu fəliyyəti ilə məşğul olan və sadələşdirilmiş vergitutma metodunu seçmiş şəxslər üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Həmin şəxslər hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini tikinti-quraşdırma işlərinin başladığı rübdə hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına bəyannamə verirlər. Bu fəaliyyətlə məşğul olan vergi ödəyiciləri vergi ödəyicisi kimi uçota alındıqları yerdən asılı olmayaraq, bina tikintisi fəaliyyətinin faktiki həyata keçirildiyi (bina tikintisi meydançasının faktiki yerləşdiyi) ərazi (zona) üçün müəyyən edilmiş qaydaya uyğun hesablanmış sadələşdirilmiş vergini bərabər hissələrlə 10 faiz həcmində hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq öhdəlik tam yerinə yetirilənədək dövlət büdcəsinə ödəyirlər.

**Sadələşdirilmiş vergi (Daşınmaz əmlakın təqdim edilməsi üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Daşınmaz əmlakın təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar.

**Sadələşdirilmiş vergi (Pul vəsaitlərinin nağd qaydada çıxarılması üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 1 faiz hesablanan vergini vəsaiti alan şəxsin bank hesabından tutulur, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergi dövlət büdcəsinə köçürülür və həmin müddətədək "Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi" vergi orqanına təqdim edilir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür. Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edildilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür. "Dövlət rüsumu haqqında" Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı):** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları bəyannaməsi (hesabatı)" (bundan sonra Bəyannamə) Azərbaycan Respublikası Vergi Məcəlləsinin 98-ci maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində muzdlu işlə əlaqədar ödənilən gəlirdən ödəmə mənbəyində gəlir vergisini tutan şəxslər, "Sosial sığorta haqqında" Qanunun 14-cü maddəsinə əsasən məcburi dövlət sosial sığorta haqqının ödəyicisi sayılan sığortaedənlər, "İşsizlikdən sığorta haqqında" Qanunun 9-cu maddəsinə əsasən işsizlikdən sığorta haqqının ödəyicisi sayılan sığortaedənlər, "Tibbi sığorta haqqında" Qanunun 15-2.2-ci maddəsinə əsasən icbari tibbi sığorta üzrə sığorta haqqının ödəyicisi sayılan sığortalılar tərəfindən tərtib edilir və vergi orqanına təqdim edilir. Vergi ödəyiciləri uçotda olduqları vergi orqanına bəyannaməni rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq və hər rüb üçün ayrı-ayrılıqda təqdim etməlidirlər. Aprelin, iyulun, oktyabrın və yanvarın 20-i iş günü olmayan dövrə təsadüf edərsə, hesabatın təqdim olunması müddəti ayın 20-dən sonra gələn birinci iş gününə qədər artırılır.

## ELAN

Qobustan rayon sakini Məhyədinov Məhyəddin Şəmi oğluna məxsus M-2140 markalı,36-38 AQ dövlət deydiyyat nişanlı avtomobilə məxsus AX-№843996 qeydiyyat şəhadətnaməsi itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan RPŞ-nə təqdim etsinlər.

Səftərova Abdaxanıma məxsus, kənd təsərrüfatı texnikası PPL-F-1,6 markalı otbağlayanın 37-Z-027zavod nömrəsi itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan RPŞ-nə təqdim etsinlər.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:*
Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:*
Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru